Azərbaycan
Dəmir Yolları

# DƏMİRYOL NƏQLİYYATINDA DAVRANIŞ QAYDALARI



# Hörmətli vətəndaşlar!

Azərbaycan Dəmir Yolları Sizi salamlayır, təhlükəsiz və uğurlu yol arzulayır. Dəmir yolları yüksək təhlükəsizlik tələbləri irəli sürülən nəqliyyat sektorudur. Bunu nəzərə alaraq dəmiryol obyektlərində olarkən hər bir insan təhlükəsiz davranış qaydalarını bilməli və onlara dəqiq riayət etməlidir. Sayıq və ətrafdakı insanlara münasibətdə diqqətli olmaq baş verə biləcək hər hansı bir xoşagəlməz hadisənin bilavasitə qarşısının alınmasına zəmin yaradır. Unutmayın ki, ehtiyatsız hər bir hərəkət həyatınızı təhlükə qarşısında qoyur.

Azərbaycan Dəmir Yolları infrastruktur obyektlərində vətəndaşlar üçün daim təhlükəsiz şərait yaradır. Bu məqsədlə yol ötürücüləri, keçid körpüləri, tunellər, xəbərdaredici siqnalizasiya sistemləri quraşdırılır və təhlükəli yerlər çəpərlənir. Bir sözlə, təhlükəsizliyin təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Lakin insanlar bəzən tələskənlik və ya etinasızlıq səbəbindən nəzərdə tutulmuş keçid körpülərindən, tunellərdən və piyada keçidlərindən istifadə etmirlər. Nəticədə dəmir yolunun infrastruktur obyektlərində insanların zədələnməsi və ya həlak olması kimi hadisələr müşahidə olunur.

## Dəmir yollarını yalnız xüsusi təyin olunmuş və təchiz edilmiş yerlərdən keçməyə icazə verilir:

- döşəməsi olan xüsusi təchiz edilmiş piyada keçidlərindən;
- tunellərdən;
- körpülərdən;
- yol ötürücülərindən;
- müvafiq nişanlarla təchiz edilmiş digər yerlərdən (dəmiryol nəqliyyatı işçiləri və texniki vasitələr tərəfindən verilən siqnallara diqqət yetirmək mütləqdir).



Dəmir yolunu yalnız təyin olunmuş xüsusi yerlərdən keçmək olar.

# DƏMİRYOL NƏQLİYYATINDA DAVRANIŞ QAYDALARI



Dəmir yollarını keçərkən telefon və qulaqlıqdan istifadə etməyin, görünmə zonasında hərəkət edən qatarın olmadığına əmin olun.



Əlil arabalarında insanlar dəmir yollarını yalnız müşahidə altında piyada keçidlərindən istifadə etməklə keçməlidirlər.

# DƏMİRYOL NƏQLİYYATINDA DAVRANIŞ QAYDALARI



Şlaqbaum açıq olduqda və ya mövcud olmadıqda işıqforun qadağanedici siqnalına riayət edərək dəmir yollarını keçməyə cəhd göstərməyin.



Dəmiryol xətlərində gəzmək qadağandır!



Uşaqları nəzarətsiz qoymayın!




Dəmir yolunun ərazisində və obyektlərində alkoqol, narkotik vasitələrdən, psixotrop və ya güclü təsir göstərən maddələrdən istifadə nəticəsində sərxoşluq vəziyyətində olmaq qadağandır!





Platformadan dəmiryol xəttinin üzərinə düşmək və ya tullanmaq qəti qadağandır.



Platformanın kənarında olan məhdudlaşdırıcı xətti keçməyin.



Qatar gələrkən və yola düşərkən platforma üzərində qaçmayın.





- Təyin olunmayan yerlərdən platformaya daxil olmağa cəhd göstərməyin, çıxışlardan, məhdudiyyət çəpərləri və girişi qadağan edən nişanlar quraşdırılmış yerlərdən keçməyin.

- Hərəkət tərkiblərinin (vaqon, lokomotiv və s.) altından keçməyin.





Kontakt şəbəkəsinin və hava xətlərinin dayaqlarına və konstruksiyalarına yaxınlaşmayın. Kontakt şəbəkəsi və hava xətlərinin dayaqlarından keçən naqillərə toxunmayın.

Qırılmış naqillərə yaxınlaşmayın.

# DƏMİRYOL NƏQLİYYATINDA DAVRANIŞ QAYDALARI



Nişanları və digər məlumat daşıyıcılarını zədələməyin, qarşısını kəsməyin və özbaşına quraşdırmayın.



Dəmir yolları üzərinə heç bir əşya qoymayın.






- Uşaqların əllərindən tutun və ya qucağınızda saxlayın.

- Partlayıcı, pirotexniki, tezalışan, radioaktiv, zəhərli və digər təhlükəli maddələri və ətrafda olan insanları zədələyə biləcək müvafiq bağlaması, qablaşdırılması və ya örtüyü olmayan əşyaları özünüzlə daşımayın.



Qatar yaxınlaşdıqda dəmiryol xətlərinin yaxınlığında olarkən hava axını zonasına düşməmək üçün təhlükəsiz məsafəyə çəkilin.



Qatarların hərəkətinə təhlükə yaradan maneələr aşkar olunduqda dərhal bu barədə dəmiryol işçilərini və müvafiq orqanları məlumatlandırın, həmin maneələri özbaşına aradan qaldırmağa cəhd göstərməyin.



Hərəkət tərkibinin təcili dayandırılmasını tələb edən vəziyyət yarandıqda, mümkün olan üsulla siqnal verməyə çalışın.



Sahibsiz əşyalara rast gəldikdə dərhal dəmiryol işçilərinə və polis əməkdaşlarına məlumat verin.

# DƏMİRYOL NƏQLİYYATINDA DAVRANIŞ QAYDALARI



Vaqonlara minib-düşdükdə uşaqları nəzarətsiz qoymayın.




Dayanan vaqonlara söykənməyin.



Hərəkət zamanı vaqona minməyə və ya düşməyə cəhd göstərməyin.



Pillələrdə və keçid meydançalarında dayanmayın.



Vaqonlara minib-düşərkən digər sərnişinlərə maneə törətməyin.



Vaqonlarda qapıların avtomatik açılıb-bağlanmasına maneə törətməyin.



Hərəkət zamanı vaqonların pəncərələrindən və tamburlarından boylanmayın.



Qatar tam dayanmamış vaqonlara yaxınlaşmayın.



Əl yükləri ilə vaqonların tamburlarını, dəhlizlərini, giriş və çıxışlarını məşğul etməyin, düşməli olduğunuz stansiyaya yaxınlaşdıqda rahat düşmək üçün öncədən hazırlaşın.



Yaşlı insanlara, hamilə, uşaqlı qadınlara və sağlamlıq imkanları məhdud olan şəxslərə köməklik edin.



Dəmir yolu qatarlarında və vağzallarında tütün çəkmək qadağandır.



Salonda telefonla və bir-birinizlə ucadan danışmayın, yüksək səslə musiqi dinləməyin, musiqi alətlərindən istifadə etməyin, sərnişinlərə hörmətlə yanaşın.





Vaqona daxil olarkən boş yerdə əyləşin, əlilliyi olan şəxlərə, qocalara, hamilə qadınlara və uşaqlı sərnişinlərə oturmağa yer verin, əlavə yer tutmayın, salonu çirkləndirməyin, əl tullantılarını döşəmənin üzərinə atmayın, təmizliyə riayət edin.

Xəstəlik əlamətləri olduğu halda dəmiryol obyektlərində olarkən və qatarda səyahət edərkən sanitariya-gigiyena qaydalarına riayət edin.



Qatarla səyahət zamanı vaqonun salonunda çirkləndirici və zədələyici əl yükü aparmayın, sərnişinlərin geyimlərini və salonu çirkləndirməmək üçün səliqə-səhmanla davranın, təmizliyə riayət edin.



Vaqonun salonunda hər hansı bir təhlükəli vəziyyət yarandıqda dərhal vaqon bələdçisinə xəbər verin, ondan aldığınız təlimatlara riayət edin.



Əgər salonda yanğın (tüstülənmə, qığılcımlanma, alovlanma) müşahidə olunarsa, burun və ağzınızı tutaraq vaqonun uzaq küncünə, təhlükəsiz məsafəyə çəkilin və bələdçinin təlimatlarına riayət edin.



Zərurət yarandıqda vaqonların yanğınsöndürən vasitələrindən  təhlükəsizlik qaydalarına uyğun istifadə edin.



Vaqonlardan qatar tam dayandıqdan sonra düşün və ya minin.



*"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Sizə yaxşı yol, uğurlu səfər və sağlam həyat arzulayır!*

Azərbaycan
Dəmir Yolları

**QR** kodu oxutmaqla qaydaların elektron versiyası ilə tanış ola bilərsiniz.

Dilarə Əliyeva küç. 230,
Bakı, AZ1010

+99412 499 45 15

info@ady.az

www.ady.az

azerbaycandemiryollari

1822